*Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 2, 2025*

https://doi.org/10.59849/2410-5600.2025.2.103

UOT: 94

**Gülnarə Ağayeva**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: agayevagulnara3@gmail.com*

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI VƏ SUVERENLİYİ TOXUNULMAZDIR

**Xülasə**

Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinə və Azərbaycan Respublikasının dövlət suverenliyinin prinsiplərinə əməl olunması nəticəsində Azərbaycan Respublikası tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, öz müstəqillik və dövlətçilik əzmini sarsılmadan qorumağa nail olmuşdur. Belə ki, Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyünə və suverenliyinə sahibdir. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi və suverenliyinin tam təmin olunması nəticəsində Azərbaycan dövlətinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü bərpa olundu və bütün dünyaya sübut olundu ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

***Açar sözlər:*** *Azərbaycan, Konstitusiya, Ulu Öndər Heydər Əliyev, Prezident İlham Əliyev, qanun, hüquq, suverenlik, referendum*

## Giriş

*12 Noyabr – Azərbaycan Respublikasının Konstitusiya Günü kimi tariximizə şərəflə yazılmış elə bir gündür ki, həmin günü müstəqil Azərbaycanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiya 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü qəbul edilmiş Konstitusiyadır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənlik və cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar nəticəsində daha da inkişaf edib, möhkəmlənmişdir. Konstitusiya qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açandır. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarılmaqla seçicilərin 86 faizinin iştirak edib və onların 91,9 faizinin lehinə səs verməsi yolu ilə seçilmişdir.*

Azərbaycan xalqının böyük əksəriyyətinin lehinə səs verməsi yolu ilə seçilən Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biridir. Ümummilli Lider Heydər Əliyevin

Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri də məhz konstitusiyanın qəbuludur. Belə ki, Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan bir sənəddir. Müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını təmin edən və hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirən ali bir sənəddir. Hər bir insan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərində Konstitusiyada olan qəbul edilmiş qanunlar hesabına müdafiə etmək hüququna malikdir. Müstəqil Azərbaycanın Konstitusiyası şəxsiyyətin toxunulmazlığını, insan həyat və sağlamlığının qorunmasını, layiqli həyat səviyyəsinin təmin olunmasını, humanizm və insanpərvərlik prinsiplərinə əməl edilməsini təmin edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət olan Müstəqil Azərbaycanın Konstitusiyası insan hüquq və azadlıqlarına geniş yer verilməsi və demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə əsaslanması ilə seçilir. Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlət quruculuğunun müasir meyillərinə əməl etməkdədir. Aliliyi qoruyan Azərbaycan Konstitusiyası Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının güclənməsinə, vətəndaşların hüquq və azadlıqlarına etibarlı təminat verilməsinə, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının genişlənməsinə xidmət edir.

Əntiqə Paşayeva "Heydər Əliyev və müstəqil Azərbaycan Konstitusiyası" məqaləsində Heydər Əliyevin müstəqil Azərbaycan Konstitusiyasının qəbul edilməsindəki rolunu geniş şəkildə şərh etmişdir: "Ulu Öndərin fikirlərini təhlil etdikdə məlum olur ki, demokratiya dedikdə təkcə insan haqları, siyasi plüralizm, söz, vicdan azadlığı və digər məsələlər nəzərdə tutulmur, demokratiya geniş bir mənaya dəlalət edir. Çünki demokratiya hər bir millətin milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir və təbii ki, bu prosesdə etik normalar də özünü göstərir. Ulu Öndər demokratik prinsiplərə o dərəcədə diqqət edirdi ki, dəfələrlə çıxışlarında buna toxunurdu. O, demokratiyanı etik, əxlaqi və mənəvi bir dəyər hesab edirdi. Onun nəzərində, demokratiya qanunları pozmaq deyil, hər hansı bir iş qanun çərçivəsində olmalı və etik normaları ehtiva etməlidir. Əgər bu normalara təkcə sözdə deyil, praktikada da əməl olunarsa onda dövlət də olacaqdır, hüquq da, qanun da. Dövlətin hüquqi statusuna gəldikdə isə qeyd etməliyik ki, dövlət hüquqi statusa, yəni müstəqil səlahiyyətə malikdir. İnsanlar dövlətin müəyyənləşdirdiyi vəzifələri yerinə yetirir və ictimaiyyət dövlətin əsas hissəsi hesab olunur. Məhz buna görə də deyə bilərik ki, dövlət ictimaiyyət əsasında hüquqi statusa və səlahiyyətə malikdir" [2, s.16].

Ulu Öndər Heydər Əliyevdən sonra Prezident İlham Əliyev Konstitusiyanın qoruyucusuna çevrilərək, ali dövlət hakimiyyətinin, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsinə xüsusi diqqət yetirmişdir. Azərbaycan Respublikasının Konstitusiyası yeni dövrün tələblərinə tamamilə uyğundur. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycanda yaşayan etnik, dini, dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir və ölkə ərazisində yaşayan müxtəlif etnik xalqlara münasibətdə hər zaman bərabər yanaşma tətbiq edir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Konstitusiyanın bu şərtlərini daim diqqət mərkəzində saxlayır. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Konstitusiyamızın əsas şərtlərindəndir. Müasir Azərbaycan dövlətinin Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biri kimi Azərbaycan xalqının mənafeyinin qorunmasına xidmət edir. Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu ili münasibəti ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Azərbaycan xalqının gücünü daim qorumaq və gələcək nəsillərə ötürmək üçün 2025-ci il "Konstitusiya və Suverenlik İli"

seçilmişdir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli"-nə həsr olunması nəticəsində müasir müstəqil Azərbaycanın uğurları, regionda və dünyada söz sahibliyi daha da artmışdır. Azərbaycan Konstitusiyasının aliliyi sayəsində Azərbaycan xalqı bu gün əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahib olmuş və qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməyə nail olmuşdur. Azərbaycanın bölgənin ən güclü və qalib dövləti kimi tanınmasında Konstitusiyanın rolu danılmazdır. Belə ki, 2025-ci il milli birlik və həmrəylik ili kimi tarixə yazılmaqdadır. Suverenliyin bərpası təkcə siyasi və hərbi proses deyil, bu həm də xalqımızın mənəvi birliyinin, bütövlüyünün, həmrəyliyinin təcəssümü, reallıqdakı əksidir. Azərbaycan xalqının Lideri – Prezident İlham Əliyevin rəhbərliyi ilə nail olduğumuz bu dəyərlər mənbəyini 1995-ci ilin 12 noyabrından - ilk müstəqillik Konstitusiyamızın qəbul edildiyi gündən götürür. O Konstitusiya ki Ulu Öndər Heydər Əliyevin tükənməz vətən sevgisinin məhsulu olaraq, qəlbinin xalqla döyünməsi və müəllifliyi ilə ərsəyə gəlmişdir 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi xalqımızın, xüsusilə yeni nəslin gələcək inkişafının hansı istiqamətdə müəyyən olunması baxımından tarixi əhəmiyyətə malikdir. Bu gün Azərbaycan xalqı özünün yeni inkişaf tarixinə qədəm qoyub. İndi dövlət suverenliyi tamdır, ərazilərimiz bütövdür, sərhədlərimiz isə toxunulmazdır. Mövcud daxili sabitliyin möhkəmlənməsinə və iqtisadi yüksəlişin daha da sürətlənməsinə əlavə stimul verəcək tam suverenlik şəraitində bu pozitiv dinamikanı qoruyub saxlamaq, uğur və nailiyyətləri artırmaq xalqımızın və dövlətimizin qarşısında duran prioritet vəzifədir.

Səməd Şahtaxtinski ""Konstitusiya və Suverenlik İli": hüquqi, tarixi və müasir perspektivlər" məqaləsində müasir Azərbaycanın Konstitusiyasının inkişaf etdirilməsini geniş şəkildə analiz etmişdir. "Konstitusiya və suverenlik anlayışları Azərbaycanın müasir dövlət quruculuğunda ayrılmaz dəyərlər kimi çıxış edir. Konstitusiya dövlətin əsas hüquqi sənədi olmaqla hüquqi dövlətin əsasını təşkil edir, vətəndaşların hüquq və azadlıqlarını təsbit edir, suverenlik isə xalqın öz müqəddəratını təyinetmə hüququnu, dövlətin öz ərazisi daxilində ali hakimiyyətə malik olmasını, beynəlxalq arenada bərabərhüquqlu subyekt kimi çıxışını və müstəqil qərarlar qəbul etməsini təmin edir. Əminliklə deyə bilərik ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, bu iki mühüm dəyərin əhəmiyyətini vurğulamaqla yanaşı, Azərbaycan Respublikasının gələcək inkişafına və milli kimliyinin daha da gücləndirilməsinə mühüm töhfə verəcək, ölkəmizin müstəqillik tarixində əldə etdiyi uğurların və gələcək perspektivlərin təhlili üçün unikal imkan yaradacaq" [5, s.10].

Azərbaycan dövlətinin müstəqillik əldə edəndən sonra qəbul etdiyi Konstitusiyası 30-cu ildir ki, Azərbaycan xalqına şərəflə xidmət edir. Müstəqillik tarixinin ən qüdrətli və mühüm hadisəsi 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən müharibə nəticəsində tarixi Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir. Belə ki, Suverenliyimizi bərpa edən Vətən müharibəsi müasir tariximizin ən parlaq səhifəsi olmaqla Azərbaycan xalqının qürur mənbəyinə çevrildi. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında keçirilən 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində ədalət və beynəlxalq hüquq bərpa edildi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin zəfər müjdələri Konstitusiyanın və Suverenliyin tamlığının sübutu idi. Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinə və Azərbaycan Respublikasının dövlət suverenliyinin prinsiplərinə əməl olunması nəticəsində Azərbaycan Respublikası tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, öz müstəqillik və dövlətçilik əzmini sarsılmadan qorumağa nail olmuşdur. Belə ki, Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyünə və suverenliyinə sahibdir. Ulu Öndər konstitusiya, demokratiya və insan haqlarında deyil, bütün sahələrdə milli-mənəvi dəyərlərin, etik

normaların inkişafına, tətbiqinə səy göstərmişdir. O, ölkədə milli-mənəvi dəyərlər qorunarsa, vətəndaş azad olarsa, dövlət qüdrətli və güclü olar fikrində olmuşdur. Dövlət, onun ərazisində yaşayan hər bir vətəndaşın təminatçısı olmalıdır fikrini dəstəkləmişdir. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır. Əgər sülh və təhlükəsizlik təmin olunmasa nə demokratiya, nə iqtisadiyyat, nə iqtisadi inkişaf, nə də insanların firavan həyatı ola bilər. Güclü dövlətə, demokratik prinsiplərə və insan azadlığına sahib olmaq üçün yalnız dövlətin arxasında möhkəm dayanmaq və irəli gələn vəzifələri vicdanla və ləyaqətlə yerinə yetirmək tələb olunur. Ulu Öndər müdrik kəlamlarla nəsihət edərək, heç bir halda və heç bir zamanda doğru və düz yoldan dönməməyimizi, həmçinin vətənimizi qorumağı təkidlə bildirmişdir. Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir. Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur. Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi və suverenliyinin tam təmin olunması nəticəsində Azərbaycan dövlətinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü bərpa olundu və bütün dünyaya sübut olundu ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycanın digər elm və təhsil ocaqları kimi Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun da rəhbər və işçi heyəti Azərbaycan Respublikasının Konstitusiyanın və Suverenliyinin qorunmasına xidmət etməkdədir.

**Nəticə**

*Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Konstitusiyamızın əsas şərtlərindəndir. Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinə və Azərbaycan Respublikasının dövlət suverenliyinin prinsiplərinə əməl olunması nəticəsində Azərbaycan Respublikası tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, öz müstəqillik və dövlətçilik əzmini sarsılmadan qorumağa nail olmuşdur. Müasir Azərbaycan dövlətinin Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biri kimi Azərbaycan xalqının mənafeyinin qorunmasına xidmət edir. Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan bir sənəddir.*

**Ədəbiyyat siyahısı:**

1. Əliyev, Heydər Əlirza oğlu. Azərbaycan xalqının Ümummilli Lideri 1923-2003.Müstəqilliyimiz əbədidir.1-ci kitab.- Bakı.Azərnəşr.- 2023. - S.408.
2. Əntiqə Paşayeva // Heydər Əliyev və müstəqil Azərbaycan Konstitusiyası // Azərbaycan qəzeti.-2025.- 28 fevral.- S.16.
3. Konstitusiya və Suverenlik İli: metodik vəsait:/ tərt. A.Məmmədova; - Bakı, 2025.- S.40.
4. Rəhmanzadə, Fazil Şamil oğlu. Qarabağ Azərbaycandır. Bakı: Elm və təhsil, 2022.- S.464.
5. Səməd Şahtaxtinski // Səməd Şahtaxtinski ""Konstitusiya və Suverenlik İli": hüquqi, tarixi və müasir perspektivlər // Şərq qapısı.- 2025.- 12 may.- S.10.

**Gulnara Aghayeva**

**The constitution and sovereignty of the Republic of Azerbaijan are inviolable**

***Summary***

As a result of the observance of the rule of law and the principles of state sovereignty of the Republic of Azerbaijan throughout the territory of the Republic of Azerbaijan, the Republic of Azerbaijan has managed to preserve its independence and statehood unshakably, despite the difficulties, occupations, and deprivations it has faced at various stages of history. Thus, today the Azerbaijani people have their own independent state, territorial integrity and sovereignty achieved at the expense of the blood of our heroic soldiers and officers, our martyrs. As a result of the liberation of the historical lands of Azerbaijan from occupation and the full provision of sovereignty, the independence, sovereignty, and territorial integrity of the Azerbaijani state were restored and it was proven to the whole world that the territory of the Republic of Azerbaijan is unified, inviolable, and indivisible.

***Keywords:*** *Azerbaijan, Constitution, National Leader Heydar Aliyev, President Ilham Aliyev, law, rights, sovereignty, referendum*

*Tarix üzrə fəlsəfə doktoru, dosent* ***Aynur Hacıqədirli***